# STRATEJİ İNKİŞAF PLANI

## 2021-2025

Azərbaycan Milli Antidopinq Strategiyası

# MÜNDƏRİCAT

ÖLKƏ ÜÇÜN TƏMİZ İDMANIN ƏHƏMİYYƏTİ ..... 4

01 DÜRÜST İDMANÇILAR ÜÇÜN ƏDALƏTİN TƏMİNİ ..... 6

02 FƏALİYYƏT ..... 8

03 DAYANIQLI İNKİŞAF ..... 10

04 STRUKTUR ..... 14

05 DOPİNQLƏ MÜBARİZƏ ÜZRƏ OPERATİV FƏALİYYƏT ..... 18

06 DÜNYADA DOPİNQLƏ MÜBARİZƏYƏ TÖHFƏ ..... 22

07 ƏMƏKDAŞLIQ VƏ TƏRƏFDAŞLIQ ..... 24

08 BEYNƏLXALQ LAYİHƏLƏR ..... 28

09 RƏQƏMSALLAŞMA ..... 30

10 SOSİAL MƏSULİYYƏT ..... 32

# ÖLKƏ ÜÇÜN TƏMİZ İDMANIN ƏHƏMİYYƏTİ

Bütün cəmiyyətlər üçün ictimai əhəmiyyət kəsb edən idman özündə sağlamlıq, ədalət, bərabər imkanlar kimi dəyərləri ehtiva edir. İdman bütövlükdə insan hüquq və bərabərliyininə hörmət üzərində formalaşmış nadir sahələrdən biridir.

Azərbaycanda idmana dövlət səviyyəsində xüsusi bir diqqət və qayğı var. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz bütün sahələrdə olduğu kimi idman və bədən tərbiyəsi sahəsində də böyük inkişaf yolu keçib. Dövlət başçısının həyata keçirdiyi uğurlu idman siyasətinin nəticəsi olaraq Azərbaycan əsl idman ölkəsinə çevrilib. Ölkəmiz dünyanın idman ictimaiyyəti tərəfindən ciddi tərəfdaş, idmançılarımız isə hörmətə layiq güclü rəqib kimi qəbul olunurlar. Azərbaycan qazandığı müsbət idman imicinin qorunmasına böyük əhəmiyyət verən təmiz idman dəyərlərinə sadiq bir ölkədir. Dövlət səviyyəsində təmiz idman dəyərlərinin qorunmasına konseptual yanaşma mövcuddur.

Məhz bu məqsədlə idmanda dopinqlə mübarizə və ölkə ərazisində mərkəzləşdirilmiş antidopinq siyasətinin həyata keçirilməsi missiyası ilə 2016-cı ilin dekabrında vahid milli antidopinq təşkilatı olan Azərbaycan Milli Antidopinq Agentliyi təsis edilmişdir.

Azərbaycan milli antidopinq təşkilatını təsis etməklə antidopinq səylərinin gücləndirilməsini və idmanda dopinqlə mübarizənin dəstəklənməsindəki əzmini nümayiş etdirir. Dövlətin davamlı dəstəyi ilə Azərbaycan Milli Antidopinq Agentliyi öz insan resurslarının ixtisaslarını artırır, araşdırma və təhsil potensialını təkmilləşdirir, innovativ üsullara sərmayə qoyur və bununla da dopinq pozuntularına qarşı güclü preventiv, qarşısını alan və aşkarlayıcı tədbirlər görməklə irəliyə doğru addımlayır.

"*İdman elə bir sahədir ki, idmançılarımız müxtəlif ölkələrdə yarışlarda iştirak edir, qələbələr qazanırlar və hər dəfə müstəqil Azərbaycanın adını ucaldırlar. Müstəqil Azərbaycanın himni çalınır, müstəqil Azərbaycanın bayrağı qaldırılır və müstəqil Azərbaycan dünyanın müxtəlif ölkələrində tanınır. Deməк olar ki, idman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur.*"

*Heydər Əliyev*





# DÜRÜST İDMANÇILAR ÜÇÜN ƏDALƏTİN TƏMİNİ

# 01

İctimai həyatın mühüm bir hissəsi olan idman Azərbaycanın dövlət siyasətinin dəyişməz prioritetlərindəndir. Azərbaycan üçün idmanın inkişafı və kütləviliyi nə qədər əhəmiyyətlidirsə, təmiz idman dəyərlərinin qorunması, idmanda ədalətin və dürüstlüyün təmin olunması da bir o qədər vacibdir. Məhz buna görə biz haqlı olaraq idman tariximizlə və nailiyyətlərimizlə qürur duyur, dürüst yarışaraq vətənimizi ləyaqətlə təmsil edən idmançılarımızla fəxr edirik.

Ədalət, şəffaflıq, dürüstlülk və bərabərlik bütün sahələrdə olduğu kimi idman siyasətinin də təməl prinsipləridir. Ölkədə antidopinq siyasətinin həyata keçirilməsindən məsul qurum olan Azərbaycan Milli Antidopinq Agentliyi bu prinsiplərə sadiq olmaqla yanaşı öz fəaliyyətini daim təkmilləşdirir, müasir çağırışlar və meyllərə uyğunlaşdırır. Məqsədimiz təmiz idman dəyərlərinin qorunması və təbliği üçün əməkdaşlığın genişləndirilməsi, müasir üsul və vasitərin istifadəsi, habelə innovativ həll yollarının tətbiqidir. Buna nail olmaq üçün biz idmançılarla daha sıx çalışmağa, yerli və beynəlxlaq tərfdaşlarımızla əməkdaşlığı genişləndirməyə davam edəcəyik.

Biz AMADA olaraq təmiz idman dəyərlərinə xələl gətirən hallara qarşı qətiyyətli mübarizə aparmaq əzmindəyik.

Bizim uğurumuz Azərbaycan idmanının dürüstlüyünü qorumaqdır. Təmiz idmançılar üçün ədalətin təmini ali məqsədimizdir. Bu missiyanı növbəti 5 illik dövrdə də uğurla həyata keçirmək məqsədi ilə hazırlanmış AMADA-nın 2021–2025-ci illər üçün Strateji İnkişaf Planını təqdim edirəm!

**Şəfəq Hüseynli**
AMADA-nın Direktoru



# FƏALİYYƏT

# 02

## MİSSİYA

Azərbaycan idmanının dürüstlüyünün və idmançıların sağlamlığının qorunması.

## DƏYƏRLƏR

Dürüstlük. Şəffaflıq. Qərəzsizlik. Hesabatlılıq.

## PRİORİETLƏR

Təmiz idmanı təmin etmək və dürüst idmançıların hüquqlarını qorumaq.

## MƏQSƏD

Dopinqin aşkarlanması və qarşısının alınması.

Azərbaycan dövləti idman dürüstlüyünü qorumaq, bilik və təcrübəni mərkəzləşdirmək və inkişaf etdirmək üçün doping təhlükəsinin bütün elementlərinin qarşısının alınmasını koordinasiya etmək, həmçinin onun monitorinqi və aşkarlanması, təhqiqatı və məsuliyyətin həyata keçirilməsi məqsədilə AMADA-nı yaratdı. AMADA dopinqlə əlaqəli məsələlərdə idmançılar, idman təşkilatları, hüquq mühafizə orqanları və digər maraqlı tərəflər üçün vahid əlaqə nöqtəsidir.

AMADA doping təhlükəsinin qarşısını alır və Azərbaycanda ədalətli və dürüst idman çıxışlarına və nəticələrinə nail olunması, yarış və yarışdan kənar müddətdə idmançılar, köməkçi heyət, inzibatçılar, rəsmilər və digər maraqlı tərəflər tərəfindən dopinqə qarşı sıfır tolerantlıq münasibətinin təşviqi və bütün səviyyələrdə təhlükəsiz, ədalətli və inklüziv bir idman mühitinə nail olunması üçün dövlət siyasətini həyata keçirir.

Ölkədə antidopinq sahəsində **8 əsas fəaliyyət istiqaməti** aşağıdakılardır:

- Dopinqlə mübarizə sahəsində dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək, tənzimləməni və qüvvədə olan qanunvericiliyə əməl edilməsinə nəzarəti həyata keçirmək;
- Dopinqlə mübarizə sahəsinin inkişafını təmin etmək;
- Antidopinq proqramını və dopinqlə mübarizə, o cümlədən doping vasitələrinin qanunsuz dövriyyəsinin qarşısının alınması sahəsində müvafiq tədbirləri həyata keçirmək;
- Antidopinq sahəsi üzrə müvafiq qurumlarla fəaliyyətin koordinasiyasını təşkil və təmin etmək;
- Doping nəzarətini, o cümlədən bionümunələrin toplanılmasını, daşınmasını və yoxlanılmasını təşkil etmək və həyata keçirmək;
- İdmançıların, o cümlədən, köməkçi heyətin hüquqlarını və sağlamlığını qorumaq məqsədi ilə idmanda dopinqsiz iştirakı təbliğ etmək, idmanda dopinqdən istifadənin qarşısının alınması məqsədilə maarifləndirmə fəaliyyətini həyata keçirmək;
- Antidopinq qayda pozuntuları ilə bağlı araşdırmalar aparmaq və məsuliyyətin həyata keçirilməsini təmin etmək;
- Dopinqə qarşı mübarizə sahəsində Ümumdünya Antidopinq Agentliyi (bundan sonra - ÜADA), beynəlxalq idman təşkilatları, antidopinq təşkilatları və bu sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr üzrə fəaliyyət göstərən digər beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığı təmin etmək.





# DAYANIQLI İNKİŞAF

# 03

Daha dayanıqlı, şəffaf, inklüziv və innovativ gələcəyə töhfə vermək üçün Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i rəhbər tutaraq və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini nəzərə alaraq,

## 2025 HƏDƏFLƏRİMİZİ

müəyyən etdik.

**Milli prioritetlər**

- **Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət**
- **Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı**
- **Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi**

**2025 Strateji planımızın təməlində 6 hədəf durur:**

- İdarəçilik və korporativ etika
- Sağlamlıq, təhlükəsizlik və maarifləndirmə
- Dürüstlük və insan hüquqları
- İnnovasiyalar və artım
- Əməkdaşlıq və tərəfdaşlıq
- Ətraf mühit öhdəliyi

Növbəti beşillikdə indiyə qədər əldə etdiyimiz qabaqcıl milli və beynəlxalq təcrübəni əsas götürərək antidopinq sahəsi və ümumilikdə cəmiyyət üçün faydalı fəaliyyətimizə davam edəcəyik.

Strateji plan BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədlərindən 11-ni ehtiva edən 6 əsas hədəfdən ibarətdir:

## Hədəf 1

### İdarəçilik və korporativ etika

Bu hədəf təşkilatın missiyası olan dürüstlük, qərəzsizlik, şəffaflıq və hesabatlılıq prinsiplərinə əsaslanan yüksək keyfiyyət və standartlara cavab verən təşkilatın idarə edilməsidir.

Əlaqəli Dayanıqlı İnkişaf Məqsədləri:

- Layiqli əmək və iqtisadi artım **[BMT DİM No.8]**
- Sülh, ədalət və səmərəli institutlar **[BMT DİM No. 16]**

## Hədəf 2

### Sağlamlıq, təhlükəsizlik və təhsil

Sağlamlıq dopinqlə mübarizənin təşkilində düzgün və əhatəli qaydaların, habelə tədbirlərin əsasını təşkil edir. Təhsil isə davamlı inkişaf üçün ən güclü vasitələrdən biri olduğu kimi, dopinqlə mübarizənin də əsas vasitələrindəndir.

Əlaqəli Dayanıqlı İnkişaf Məqsədləri:

- Yaxşı səhiyyə və rifah **[BMT DİM No.3]**
- Keyfiyyətli təhsil **[BMT DİM No.4]**

## Hədəf 3

### Dürüstlük və insan hüquqları

İnsan hüquqları davamlı inkişaf üçün şərait yaradır. Müxtəliflik, bərabər fürsət, gender balansı, ayrıseçkiliyə yol verməmə kimi prinsiplərə sadiqlik bütün fəaliyyət sahələri üçün vacibdir.

Əlaqəli Dayanıqlı İnkişaf Məqsədləri:

- Gender bərabərliyi **[BMT DİM No 5]**
- Bərabərsizliyin azaldılması **[BMT DİM No.10]**
- Sülh, ədalət və səmərəli institutlar **[BMT DİM No. 16]**

## Hədəf 4

### İnnovasiyalar və artım

Fəaliyyətini Ümumdünya Antidopinq Məcəlləsinə uyğun olaraq quran AMADA ISO 9001: 2015 standartına sahibdir. Bu, işçilərin iştirakı, müxtəliflik, rəqəmsallaşma, innovasiyalar, əməkdaşlıq və qlobal tərəfdaşlığı ehtiva etməklə yanaşı şəffaflığa və hesabatlılığa əsaslanır.

Əlaqəli Dayanıqlı İnkişaf Məqsədləri:

- Layiqli əmək və iqtisadi artım **[BMT DİM No.8]**
- Sənaye, innovasiya və infrastruktur **[BMT DİM No.9]**
- Məqsədlər üçün tərəfdaşlıqlar **[BMT DİM No.17]**

## Hədəf 5

### Əməkdaşlıq və tərəfdaşlıq

Həm yerli, həm də beynəlxalq səviyyədə bütün maraqlı tərəflərlə, xüsusilə idmançılarla uzunmüddətli əlaqələrin qurulması dopinqlə mübarizəni gücləndirir.

Əlaqəli Dayanıqlı İnkişaf Məqsədləri:

- Məqsədlər üçün tərəfdaşlıqlar**[BMT DİM No.17]**

## Hədəf 6

### Ətraf mühit öhdəliyi

AMADA-nın ətraf mühitin qorunmasına həssas yanaşması özündə təkrar emal, enerji və su istifadəsini azaltmaq, tullantıların idarə olunması, enerji səmərəliliyi və bərpa olunan enerjidən istifadəni ehtiva edir.

Əlaqəli Dayanıqlı İnkişaf Məqsədləri:

- Sərfəli və təmiz enerji **[BMT DİM No.7]**
- Məsuliyyətli istehsal və istehlak **[BMT DİM No.12]**
- İqlim dəyişikliyinə qarşı mübarizə **[BMT DİM No.13]**

## Ümumi keyfiyyət idarəetməsi yanaşması

Aşağıda qeyd edilən yaxşı idarəetmə prinsipləri AMADA-nın əsas qaydalarına daxil edilmişdir. AMADA ümumui keyfiyyət edarəetmə yanaşmasından istifadə edir. Bu yanaşma işçilərin performansının, təşkilatın potensialının və proseslərin yaxşılaşdırılmasını, həmçinin komanda işinin təşviq edilməsini, qərar qəbul etmə prosesinin yaxşılaşdırılmasını və xərclərin azaldılmasını ehtiva edir.Biz etik olmayan davranışların qarşısının alınmasını və yüksək keyfiyyətli mütəxəssislərin yetişdirilməsini təmin edən etik mədəniyyət mühitini yaradırıq.

### Risklərin idarəedilməsi
Risk qiymətləndirmə və idarəetmə prosedurları

### Təşkilatın strategiyası
Təşkilatın fəaliyyət planı

### Nüfuz
Nüfuzumuza və etibarlılığımıza dair strategiya

### İnkişaf strategiyası
Qlobal antidopinq hərəkatında iştirak və şaxələndirmə planı

### Dövlət siyasətinin inkişafı
Dövlət siyasətinin formalaşdırılmasında iştirak

### Korporativ İdarəetmə
Təşkilatın idarə etdiyi qaydalar və proseslər

### Etik davranış qaydalar
Təşkilat daxili etik mədəniyyət mühiti

### Maraqlı tərəflərin iştirakı
Tərəfdaşlarla dialoq və əlaqələr

### Maliyyə şəffaflığı
Fəaliyyətimiz haqqında vaxtında etibarlı açıqlamalar

### İnformasiya Texnologiyaları
Təşkilatımızın rəqəmsallaşdırılması və kiber təhlükəsizliyini inkişaf etdirmək üçün strategiya

### Uyğunluq
Əməliyyatlarımız və qərar qəbul etmək proseslərimizdə dürüstlük və məsuliyyət

### İdarəetmə sistemləri
Tələblərimizə və hədəflərimizə çatmağımızı təmin etmək üçün istifadə olunan proseslər

### Keyfiyyət təminatı
ISO 9001: 2015 və iQNet

## İnsan kapitalı

İnsan kapitalı təşkilatımızın ən böyük sərvətidir. AMADA-nın əmkdaşları təşkilatın inkişafında mühüm rol oynayır və əsas korporativ prinsiplərimizin mərkəzini təşkil edirlər:

- Əməkdaşlarımız arasında qarşılıqlı hörmət, bərabər imkanlar və müxtəliflik dəyərlərini bölüşmək;
- İstedadlı insanları cəlb etmək və onların sadiqliyini qazanmaq;
- İşçilərimizlə yaxın və şəffaf münasibətləri təşviq etmək;
- Rifah, sağlamlıq  və təhlükəsiz bir mühiti təşviq etmək.

## Təşkilatı mədəniyyət

AMADA, etik mədəniyyət mühiti və sosial məsuliyyətə hörmət, davamlı keyfiyyət istiqamətində daima fəaliyyət göstərərək dəyərlər üzərində qurulmuş təşkilatı mədəniyyətə sahibdir.

- İnsan hüquqlarına hörmət
- Müxtəliflik və inklüzivlik
- Gender bərabərliyi
- Maraqlar toqquşmasının olmaması
- Etik davranış

# STRUKTUR

# 04

YUNESKO-nun idmanda dopinqə qarşı Beynəlxalq Konvensiyasına, Avropa Şurasının Antidopinq Konvensiyasına, Ümumdünya Antidopinq Məcəlləsinə və "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq AMADA milli antidopinq təşkilatı olaraq müstəqil, özünütənzimləyən və fəaliyyətində şəffaf olmalıdır və təşkilatı struktur daxilində dəqiqliklə müəyyən edilmiş səlahiyyətlərə sahib olmalıdır. Bu məqsədlə AMADA-nın strukturu icra orqanı və müşahidə orqanından ibarətdir.

Bundan əlavə, idmançıların ədalətli, qərəzsiz və əməliyyat baxımından müstəqil dinləmə hüququ üzrə Ümumdünya Antidopinq Məcəlləsinin tələbini təmin etmək üçün, institusional cəhətdən müstəqil birinci və apellyasiya instansiyası, habelə terapevtik istifadəyə icazə qurumları yaradılmışdır. Həmçinin, idmançı təmsilçiliyinə sahib olmaq üçün Azərbaycan idmançılarının hüquqlarını qorumaq məqsədilə məsləhətçi qurum yaradılmışdır.



## Nümunə Toplanması Heyəti

İdmançılardan nümunələr toplamaq məqsədilə AMADA-nın nümunə toplanması heyəti mövcuddur. Bunlara Dopinq Nəzarəti İnspektorları, Qan Nəzarəti İnspektorları və Şaperonlar daxildir. AMADA-nın nümunə toplanması heyəti Beynəlxalq Test Agentliyinin sertifikasiyasından keçərək beynəlxalq statusa sahib olmuşlar. Həmçinin, AMADA-nın nümunə toplanması heyəti müxtəlif mühüm beynəlxalq tədbirlərdə (Olimpiya Oyunları, İslam Oyunları, Asiya Oyunları və s.) fəaliyyət göstərərdikləri üçün əhəmiyyətli təcrübəyə malikdirlər. Hazırda AMADA-nın 26 Dopinq Nəzarəti İnspektorları, 4 Qan Nəzarəti İnspektorları və 13 Şaperonu var.

**Direktor**

**Direktor müavini**

## ƏMƏLİYYATLAR

### TEST ŞÖBƏSİ
- Şöbə müdiri
- Dopinq nəzarəti üzrə menecer
- Logistika üzrə menecer

### HÜQUQ ŞÖBƏSİ
- Şöbə müdiri
- Korporativ hüquqşünas
- Mübahisələrin həlli üzrə hüquqşünas

### ELM ŞÖBƏSİ
- Şöbə müdiri
- Tibb və elm üzrə menecer
- Elm layihələri üzrə menecer

İNTİZAM VƏ APELLYASİYA KOMİTƏLƏRİ

NÜMUNƏ TOPLANMASI HEYƏTİ

Tİİ KOMİTƏSİ

## KORPORATİV

### MALİYYƏ VƏ İNSAN RESURSLARI ŞÖBƏSİ
- Şöbə müdiri
- Mühasib
- İnsan resursları üzrə menecer

### İNFORMASİYA TEXNOLOGİYALARI ŞÖBƏSİ
- Şöbə müdiri
- Sistem və şəbəkə inzibatçısı
- Proqram mühəndisi

UYĞUNLUQ ÜZRƏ MENECER

**Direktor müavini**

## TƏHSİL VƏ KOMMUNİKASİYA

### TƏHSİL ŞÖBƏSİ
- Şöbə müdiri
- Təhsil proqramları üzrə menecer
- Dəyərlərə əsaslanan təhsil üzrə menecer

### MEDİA VƏ KOMMUNİKASİYA ŞÖBƏSİ
- Şöbə müdiri
- Rəqəmsal marketinq üzrə menecer
- Layihələr üzrə kreativ menecer

### TƏHQİQAT ŞÖBƏSİ
- Şöbə müdiri
- Təhqiqat üzrə menecer
- Məlumat toplanması və təhlili üzrə menecer

## MÜŞAHİDƏ ORQANI

### Müşahidə Şurası

Ümumdünya Antidopinq Məcəlləsi və onun tətbiqi üzrə müvafiq qaydalara əsasən milli antidopinq təşkilatların öz idarəçiliyində dəqiqliklə səlahiyyətləri ayrılmış icra və müşahidə orqanı olmalıdır. Bununla bağlı, AMADA-nın icra orqanından ayrı müşahidə orqanı vardır. Şura müvafiq qanunvericiliyə və Əsasnaməsinə əsasən fəaliyyət göstərir. AMADA-nın Müşahidə Şurası sədr və sədr müavini daxil olmaqla müxtəlif sahələrin nümayəndələrindən ibarətdir və 7 üzvü var. Müşahidə Şurası müşahidə səalhiyyətinə malikdir və Agentlitin icra orqanına və onun operativ fəaliyyətinə müdaxilə etmir.

Şura ildə iki dəfə görüşür, zərurət yarandıqda isə növbədənkənar iclaslar keçirə bilər. Həmçinin, Şuranın üzvləri müxtəlif sahələrin nümayəndələri olduğundan, Şura həmçinin AMADA-nın fəaliyyətini dəstəkləmək məqsədilə həmin sahələr üzrə əlaqələndirici rol oynaya bilər.

Şuranın:

- AMADA-nın missiyasını və fəaliyyətini dəstəkləmək,
- Agentliyin aktivlərinə müşahidə etmək,
- Kapital və təkrarlanan xərclər və Agentliyin rezervləri üçün lazım olan ehtiyatları müəyyən etmək,
- Habelə illik hesabatları dinləmək funskiyalarına malikdir.

## MÜSTƏQİL QURUMLAR

### Müstəqil dinləmə qurumları

Ədalət, bitərəflik və müstəqilliyin təmin edilməsi məqsədilə "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq AMADA-dan əməliyyat və təşkilati qaydada müstəqil fəaliyyət göstərən iki ayrı qurum yaradılmışdır. Bunlar birinci instansiya qurumu kimi İntizam Komitəsi və apellyasiya qurumu kimi Apellyasiya Komitəsidir. Sözügedən Komitələrə Ümumdünya Antidopinq Məcəlləsi, Azərbaycan Milli Antidopinq Qaydaları və digər beynəlxalq standartlara uyğun olaraq antidopinq qayda pozuntularını dinləmək və müəyyənləşdirmək, qərar vermək və sanksiya tətbiq etmək səlahiyyətləri verilmişdir.

### Terapevtik icazə qurumu

Əlavə olaraq, idmançıların sağlamlığının təmin edilməsi və qorunmasını təmin etmək üçün Terapevtik İstifadəyə İcazə Komitəsi adlı əməliyyat və təşkilati cəhətdən müstəqil qurum yaradılmışdır. İdmançıların dərman qəbul etmələrini və ya prosedurlardan keçmələrini tələb edən tibbi vəziyyətləri və ya xəstəlikləri olduqda və onun müalicəsi üçün istifadəsi tələb olunan maddə və ya üsul Ümumdünya Antidopinq Agentliyinin (ÜADA) Qadağan edilmiş Siyahısına əsasən qadağan olduqda, bu zaman müvafiq sanksiyaya məruz qalmadan həmin idmançıya istifadə üçün icazə verilə bilər. Bunun üçün müraciətlər Terapevtik İstifadəyə İcazə Komitəsinin həkim heyəti tərəfindən qiymətləndirilir.



## MƏSLƏHƏTÇİ QURUMU

### İdmançılar Məsləhətçi Komissiyası

AMADA idmançıların fikirlərinə xüsusi əhəmiyyət verir və öz fəaliyyətində bunu nəzərə alır. AMADA üçün idmançıların dopinqlə mübarizəyə qatılması, onların əməkdaşlığa cəlb edilməsi və onlara bərabər imkanların təmin edilməsi əhəmiyyətlidir.

Bunu nəzərə alaraq 2019-cu ildə AMADA özünün idmançı ictimaiyyəti ilə əməkdaşlığının artırılması üzrə davam edən səylərinin bir nümunəsi kimi İdmançılar Məsləhətçi Komissiyasını yaratmışdır. Onun vəzifəsi AMADA-nın fəaliyyətinin müxtəlif aspektlərini müzakirə etmək və tövsiyələr hazırlamaqdır. Komissiyasının vəzifələri əsasən təmiz idman missiyansının dəstəklənməsi, idmaçılarla əlaqədar xüsusi layihələrin idarə edilməsi, idmançılar və AMADA arasında əlaqələndirici xidmətin göstərilməsi və Komissiyanı müxtəlif antidopinq tədbirlərində təmsil edilməsindən ibarətdir.

AMADA Ümumdünya Antidopinq Məcəlləsini imzalamış və onun tələblərinə, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı YUNESKO-nun idmanda dopinqə qarşı Beynəlxalq Konvensiyasının və Avropa Şurasının Antidopinq Konvensiyasının tələblərinə riayət etmək öhdəliyi vardır. AMADA-nın əsas vəzifəsi Ümumdünya Antidopinq Məcəlləsinin, habelə test etmə, təhqiqatların aparılması, hüquqi nəticələr, təhsil, terapevtik icazənin verilməsi, məlumatların qorunması, qadağan edilmiş siyahı və Məcəlləyə uyğunluq üzrə 8 Beynəlxalq Standartların və Azərbaycan Milli Antidopinq Qaydalarının tələblərini yerinə yetirməkdir.



# DOPİNQLƏ MÜBARİZƏ ÜZRƏ OPERATİV FƏALİYYƏT

# 05

AMADA ölkə ərazisində Ümumdünya Antidopinq Məcəlləsinə və Test etmə və təhqiqatlar üzrə beynəlxalq standarta əsasən milli test proqramını həyata keçirir. Milli test proqramı test bölüşdürülmə planından, yarış və yarışdan kənar müddətdə testlərin keçirilməsi, habelə risklərin qiymətləndirilməsi, idmançıların bioloji pasportlarının idarəedilməsi və digər aspektlərdən ibarətdir.

## Test bölüşdürülmə planı (TBP)

AMADA ağıllı, riskləri nəzərə alan və təhqiqatlara əsaslanan test proqramını icra edir. AMADA elmi nailiyyətləri, sosial tədqiqatları, idman cədvəli, idman növlərinə müvafiq fizioloji tələbləri, aşkarlama pəncərələrini və s. nəzərə alaraq qadağan edilmiş maddə və üsulların aşkarlanması üçün hərtərəfli yarış müddətində və yarışdan kənar müddətdə test proqramını həyat keçirir. TBP idman növləri, idmançı kateqoriyaları, test növləri, toplanmış nümunə növləri və nümunə analizi növləri arasında müvafiq olaraq prioritetləri müəyyənləşdirir. Azərbaycan Milli Antidopinq Qaydaları Olimpiya idman növlərini və digər müəyyən idman növlərində daha yüksək dopinq təhlükəsini və onların milli idman üçün kəsb etdiyi əhəmiyyəti nəzərə alaraq həmin idman növlərinə daha çox diqqət ayırır.

## Risk qiymətləndirilməsi

Risk qiymətləndirilməsi lazımi idmançıların düzgün vaxtda hədəflənməsi vasitəsilə test proqramının effektivliyini artırır, dopinqi aşkarlamaq imkanının artırılması üçün resursların necə səmərəli sərf olunmalı olduğunu müəyyən edir.

## Beynəlxalq Test Sifarişləri

AMADA idman təşkilatları, Milli Antidopinq Təşkilatları (MADT), Beynəlxalq Test Agentliyi (BTA), Beynəlxalq Federasiyalar, yerli və beynəlxalq tədbir təşkilatçıları üçün xüsusiləşdirilmiş, hərtərəfli test xidmətlərini göstərir.

## Yarış müddətində test

Yarış müddətində test idman yarışı zamanı həyata keçirilir. Azərbaycan Milli Antidopinq Qaydalarının yürisdiksiyası ilə əhatə olunan hər bir idman tədbiri zamanı dopinq nəzarəti testi keçirilə bilər.

## Yarışdan kənar müddətdə test

AMADA tərəfindən həyata keçirilən yarışdan kənar müddətdə test proqramı bütün idmançılar üçün bərabər imkanların yaradılması baxımından əhəmiyyətlidir. Məkan məlumatı istənilən zaman idmançıların harada olduqlarının müəyyən edilməsi və effektiv antidopinq proqramının əsas elementi olan əvvəlcədən xəbərdarlıqsız testlərin keçirilməsi üçün mühüm alətdir.

## İdmançının Bioloji Pasportu

İdmançının Bioloji Pasportu (İBP) dopinqin bədənə təsirini aşkarlaya bilən seçilmiş bioloji parametrlərin müəyyən müddət ərzində monitorinqidir.

AMADA davamlı olaraq hemotoloji və steroid parametrləri izləyir və bu yanaşma AMADA-ya hər bir idmançı üçün fərdi, uzunmüddətli profillər yaratmağa, habelə idman göstəricilərini artıran maddə və ya üsulların istifadəsinə işarə edən hər hansı kəskin dəyişiklikləri izləməyə imkan verir.

## TƏHQİQAT FƏALİYYƏTİ

Test etmə və təgqiqatlar üzrə beynəlxalq standarta əsasən AMADA effektiv, ağıllı və müntənasib Test Bölüşdürmə Planının hazırlanması üçün məlumatlandırılma, hədəfli testlərin planlaşdırılması, mümkün antidopinq qayda pozuntularının təhqiqatı üçün əsas formalaşdırır. Bu məqsədlə dopinq istifadəsinin aşkarlanmasında istifadə üçün bütün mövcud mənbələrdən əldə olunan antidopinq araşdırma məlumatlarını qiymətləndirir və emal edir.

### Məlumat Kanalları

Araşdırma materiallarının toplanması fəaliyyəti ilə yanaşı, AMADA ifşaedənlərə, onların bildiyi hər hansı pozuntu barədə məlumat vermək üçün mexanizm təsis etmişdir. Məlumatlandırma mexanizminin, internet səhifəsinin anonim və müdafiə olunmuş bölməsi, antidopinq qayda pozuntularının təhqiqatları zamanı məxfi müsahibələr, o cümlədən telefon və elektron poçt vasitəsilə əlaqə kimi müxtəlif mühafizə olunmuş kanalları mövcuddur. Bu məlumatlandırma mexanizmləri AMADA-ya antidopinqlə bağlı pozuntuları aşkarlamağa kömək edir.

### Qanunsuz dövriyyə ilə mübarizə

Dopinq maddələri, əsasən anabolik steroidlər (və ya güclü təsir edən maddələr) bəzi hallarda ölkə ərazisinə qanunsuz yollarla gətirilir və qara bazarda satılır. Bununla bağlı, AMADA bu istiqamətdə hüquq mühafizə orqanları ilə sıx əməkdaşlıq edir və məlumat mübadiləsini həyata keçirir.

## HÜQUQİ NƏTİCƏLƏR

AMADA antidopinq qayda pozuntularını təqib edir və Ümumdünya Antidopinq Məcəlləsi və müvafiq beynəlxalq standarta əsasən həmin şəxsləri məsuliyyətə cəlb edir. Antidopinq qayda pozuntuları törədildikdə, bu zaman həmin şəxslərə müvafiq sanksiyalar tətbiq edilir. Sanksiyalara idmandan müəyyən müddətə uzaqlaşdırılma, əldə edilən nəticələrin ləğv edilməsi və ictimaiyyətə açıqlama daxildir. Ümumdünya Antidopinq Məcəlləsinin dinləmə hüququ tələbini təmin etmək məqsədilə sanksiyalar AMADA-nın strukturuna daxil olmayan müstəqil və bitərəf birinci və apellyasiya instansiyaları qurumları tərəfindən verilir. Bunlar İntizam Komitəsi və Apellyasiya Komitəsidir. Qəbul edilmiş qərarlarla bağlı apellyasiya hüququna malik olan şəxslərin yekun instansiya olaraq İsveçrənin Lozanna şəhərində yerləşən İdman Arbitraj Məhkəməsinə apellyasiya qaydasında şikayət vermək hüquqları tanınır.

İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiyada ittiham edilən və mümkün sanksiya ilə üzləşən şəxsə öz müdafiə xərclərini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman müvafiq hüquqi yardımın göstərilməsi haqqında müddəa mövcuddur. Antidopinq icraatının məqsədi cəzalandırmaq deyil, ədalətin bərqərar olunması və təmiz idman prinsiplərinin müdafiə olunmasıdır. Antidopinq sisteminin tələbləri ilə idmançıların müdafiə edilməsi zərurətinin tarazlaşdırılmasının yollarından biri idmançılara müvafiq hüquqi yardımın təmin edilməsidir. Bu məqsədlə, AMADA öz təşəbbüsü ilə ölkənin aparıcı hüquq şirkətləri ilə əməkdaşlığa başlamışdır.

İdmanda doping təhlükələrinin qarşısını almağa çalışarkən, idman ictimaiyyəti ilə proaktiv əlaqə qurmaq vacibdir. Bütün səviyyələrdə olan idmançılara doping risklərinin mənşəyini anlamaq və bununla bağlı düzgün qərarlar qəbul etmək üçün dəstək məqsədilə təhsil və maarifləndirmə proqramlarımızın daha da gücləndirməsini təmin edəcəyik. Biz Məcəlləyə, beynəlxalq standartlara və qaydalara əsaslanan tənzimləyici normalar daxilində fəaliyyət göstəririk və bu standartları tətbiq etmək bizim öhdəliyimizdir. Təhsilin əhəmiyyətini dərk edərək, diqqətimiz uyğun olan təhsili təmin etmək, doğru kanallardan istifadə etmək və bunun uyğun və əlçatan olmasını təmin etməkdir.

Təhsil üzrə beynəlxalq standarta əsasən AMADA Azərbaycanın idman ictimaiyyətini, o cümlədən peşəkar və həvəskar idmançıları, Qeydiyyata alınmış Test Qrupundakı idmançıları, məşqçiləri, idmançıya dəstək heyətini, həkimləri və universitet tələbələrini əhatə edən müxtəlif növ təhsil proqramlarına malikdir. AMADA təhsili antidoping proqramının təməllərindən biri hesab edir və idmançıların antidopinqlə bağlı maarifləndirilməsi strateji əhəmiyyət daşıyır. AMADA-nın təhsil strategiyası maraqlı tərəflərin, xüsusilə idmançıların prosesə cəlb olunmasının artırılması və innovativ üsulların istifadəsi ilə fərqlənir.

Eyni zamanda maarifləndirmə dopinqlə mübarizədə ən vacib, effektiv və dayanıqlı yanaşma kimi qəbul edilərək aşağıdakı prinsiplər nəzərə alınmaqla həyata keçirilir:

- **Dəyərlərə əsaslanan təhsil:** uşaq, yeniyetmə və gənclər arasında təmiz idman, şəxsi mənəvi dəyərlər, etik normalara uyğun davranış və fərdi prinsiplərə əsaslanaraq qərar vermək qabiliyyətinin inkişafına yönəldilmiş təlim proqramları;
- **Maarifləndirmə:** Təmiz idmanla əlaqəli təcrübə və mövzulara xüsusi diqqətin ayrılması;
- **Məlumat Təminatı:** İdman ictimaiyyətinin təmiz idmanla əlaqədar dəqiq, ən son elmi tədqiqatlara və sübutlara əsaslanan məlumatlarla təminatı;
- **Antidopinq Təhsili:** İdmançılara təmiz idman üzrə fərdi qərar qəbul etməyə kömək edə biləcək dürüst və aydın məlumatların əldə edilməsini təmin etmək, onları hüquq və öhdəlikləri barədə məlumatlandırmaq.





# DÜNYADA DOPİNQLƏ MÜBARİZƏYƏ TÖHFƏ

# 06

Biz antidopinq cəmiyyəti üçün güclü və səmərəli təsirə malik tərəfdaş olmağı hədəfləyirik:

- Dünyada uyğunluğu və hesabatlılığı təmin etmək üçün aparıcı antidopinq və idman təşkilatları ilə əməkdaşlıq etmək;
- Mövcud və yeni qlobal antidopinq proqramlarını və tərəfdaşlığı təşviq etmək;
- İdmanın dəyərini və dürüstlüyünü inkişaf etdirən təşkilatlarla strateji tərəfdaş olmaq;
- Şəffaf antidopinq proqramlarını təşviq etmək.

# AZƏRBAYCANIN NÜMAYƏNDƏ HEYƏTİ

Avropa Şurası

**Şəfəq Hüseynli (Direktor)**

- Avropa Şurası Antidopinq Konvensiyasının Monitorinq Qrupu,
- Avropa Şurasının Ümumdünya Antidopinq Agentliyi üzrə Xüsusi Avropa Komitəsi

YUNESKO

**Şəfəq Hüseynli (Direktor)**

- YUNESKO-nun İdmanda dopinqə qarşı mübarizə haqqında Beynəlxalq Konvensiyası üzrə Tərəflərin Konfransı

# AMADA-NIN İŞÇİ HEYƏTİNİN EKSPERT QİSMİNDƏ TANINDIĞI VƏ ONLARIN SEÇİLDİYİ VƏZİFƏLƏR

Avropa Şurası

**Şəfəq Hüseynli (Direktor)**

- Avropa Şurası Antidopinq Konvensiyası üzrə İnsan Hüquqları Ad Hoc Qrupunun Sədr müavini (May 2019-cu il tarixindən etibarən)
- Avropa Şurasının Ümumdünya Antidopinq Agentliyi üzrə Xüsusi Avropa Komitəsinin gender bərabərliyi məruzəçisi (Oktyabr 2019-cu il tarixindən etibarən)
- Avropa Şurası Antidopinq Konvensiyası üzrə Koordinasiya Qrupunun üzvü (May 2019-cu il tarixindən etibarən)

**Fərhad Abasov (Hüquq şöbəsinin müdiri)**

- Avropa Şurası Antidopinq Konvensiyası üzrə İfşaedənlərin Müdafiəsi üzrə Ad Hoc Qrupunun üzvü (May 2019-cu il tarixindən etibarən)

Ümumdünya Antidopinq Agentliyi

**Şəfəq Hüseynli (Direktor)**

- Ümumdünya Antidopinq Agentliyinin Milli Anti-doping Təşkilatları üzrə Ekspert Məsləhətçi Qrupunun üzvü (Yanvar 2019-cu il tarixindən etibarən)

Beynəlxalq Test Agentliyi

**Nailə Məhərrəmova (Dopinq nəzarəti meneceri )**

- Beynəlxalq Test Agentliyinin Beynəlxalq Doping Nəzarəti İnspektorları üzrə Ekspert Məsləhətçi Qrupunun üzvü (Yanvar 2021-ci il tarixindən etibarən)

# BEYNƏLXALQ LAYİHƏLƏRDƏ İŞTİRAKIMIZ

AMADA dünyada dopinqlə mübarizə istiqamətində atılan addımlar və həyata keçirilən layihələrdə fəal işitrak edir. Belə ki, AMADA aşağıdakı sənədlərin və layihələrin hazırlanmasında iştirak edən az sayda antidopinq təşkilatlarından biridir:

Avropa Şurası layihələri

- Nazirlər Komitəsi tərəfindən təsdiq ediləcək antidopinq icraatlarında idmançı hüquqlarının təmin edilməsi üzrə ümumi prinsiplər;
- Nazirlər Komitəsi tərəfindən təsdiq ediləcək antidopinqdə ifşaedənlərin müdafiəsi üzrə tövsiyələr;
- Antidopinq Konvensiyasının 2021-2024-cü illər üzrə strateji və əməliyyat planı;

ÜADA layihələri

- ÜADA-nın 2021-2025-ci illər üzrə strateji planı;
- Milli antidopinq təşkilatların fəaliyyəti üzrə bir sıra təlimatlar;
- ÜADA-nın təhsil komitəsi tərəfindən hazırlanan təhsil proqramı üzrə təlimat.



# ƏMƏKDAŞLIQ VƏ TƏRƏFDAŞLIQ

# 07

Əməkdaşlıq və koordinasiyalı yanaşmanı rəhbər tutaraq AMADA maraqlı tərəflərin təcrübəsini tanıyır və qəbul edir. Öz növbəsində, həmin tərəflər dopinq təhlükəsinin qarşısını almaq üçün vahid mərkəzləşdirilmiş təşkilatla işləməkdən faydalanır.

AMADA dopinq təhlükəsinin bütün elementləri ilə mütəşəkkil mübarizə aparır. Bura, hüquq mühafizə orqanları, gömrük və sərhəd xidməti qurumları, tənzimləyici orqanlar, akademik təşkilatlar, idman və səhiyyə sektoru daxildir.

AMADA, antidopinq cəmiyyətinin kollektiv bacarıqlarını inkişaf etdirmək üçün Ümumdünya Antidopinq Agentliyi və digər beynəlxalq antidopinq təşkilatları ilə əlaqələri möhkəmləndirməyə davam edəcək ki, Azərbaycan idmançıları dünyada bütün olduqları yerlərdə bərabər şəraitdə mübarizə apara bilsinlər.

## Milli Olimpiya və Paralimpiya Komitələri

Milli Olimpiya və Paralimpiya Komitələri ilə bərabər tərəfdaşlıq ruhunda əməkdaşlıq idmanda dopinqlə mübarizə üçün zəruridir. Antidopinq sistemi və ölkədaxili əməkdaşlığın yüksək səviyyədə saxlanması Azərbaycanın əhəmiyyətli beynəlxalq tədbirlərdə, xüsusilə Olimpiya və Paralimpiya Oyunlarında təmiz idmançılarla təmsil olunmasına gətirib çıxarır.

## Gənclər və İdman Nazirliyi

AMADA Azərbaycan antidopinq ictimaiyyətinin əsas tərəflərindən biri və ölkədə bütün idman fəaliyyətini idarə edən qurum olan Azərbaycan Respublikasi Gənclər və İdman Nazirliyi ilə sıx əməkdaşlıq edir.

## Hüquq Mühafizə Orqanları

Qanuna əsasən AMADA hüquq mühafizə orqanları ilə Antidopinq qayda pozuntuları və dopinq nəzarəti üzrə zəruri məlumat mübadiləsini həyata keçirir. Əlavə olaraq, dopinq maddələri, xüsusilə anabolik steroidlər əksər hallarda qanunsuz idxal edilir və qara bazarda satılır. Bununla əlaqədar olaraq belə qanunsuz fəaliyyətin qarşısının alınması üçün səyləri birləşdirmək məqsədilə AMADA Daxili İşlər Nazirliyi, İNTERPOL-un Milli Mərkəzi Bürosu, Dövlət Sərhəd Xidməti və Dövlət Gömrük Komitəsi ilə əməkdaşlıq edir.

## Milli Federasiyalar

Respublika idman federasiyaları öz yurisdiksiyaları çərçivələrində hər bir idman növünü idarə edən təşkilatlardır. Dopinqlə müştərək mübarizə aparmaq, o cümlədən təmiz idmanı təşviq etmək və idmançıları və onların köməkçi heyətlərini məlumatlandırmaq məqsədilə, AMADA bütün milli federasiyalarla əməkdaşlıq edir və onların Məcəllə və beynəlxalq standartlara riayətini monitorinq edir.

## Narkotiklərlə mübarizə

25 dekabr 2020-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən AMADA "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın icraçılar siyahısına daxil edilmişdir. Bununla, AMADA Dövlət Proqramına töhfə verərək, ölkə ərazisində narkotiklərə qarşı mübarizəyə qoşulmuşdur.

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR

AMADA təmiz idmanın təşviqi məqsədilə beynəlxalq arenada faal iştirak edir. Milli antidopinq təşkilatı kimi, AMADA hər zaman milli səviyyədə fəaliyyətini təkmilləşdirmək və beynəlxalq səviyyədə dopinqlə mübarizəyə töhfə vermək əzmindədir. AMADA inanır ki, qarşılıqlı faydalı əməkdaşlıq həm ölkə daxilində, həm də qlobal arenada faydalıdır.

## Ümumdünya Antidoping Agentliyi

Ümumdünya Antidopinq Agentliyi (ÜADA) idman hərəkatı və dövlətlər tərəfindən təsis edilmiş və maliyyələşdirilən beynəlxalq müstəqil qurumdur. Əsas fəaliyyət istiqamətlərini elmi tədqiqat, təhsil, antidopinq fəaliyyətinin inkişafı və bütün idman növləri və bütün ölkələrdə antidopinq siyasətlərini birləşdirən sənəd olan Ümumdünya Antidopinq Məcəlləsinin monitorinqini təşkil edir. AMADA, öz gündəlik fəaliyyətində ÜADA ilə sıx əməkdaşlıq edir və ÜADA-nın tədbirlərində və xüsusi işçi qruplarında iştirak edir. Bu AMADA-ya ölkənin Məcəllə və Beynəlxalq Standartlara riayət statusunu dəstəkləməyə və eyni zamanda, qlobal səviyyədə dopinqlə mübarizəyə töhfə verməyə kömək edir.

## YUNESKO

Azərbaycan 23 iyul 2007-ci il tarixində YUNESKO-nun İdmanda Dopinqə qarşı Beynəlxalq Konvensiyasına tərəf olmuşdur. Konvensiyanın məqsədi beynəlxalq hüququn dopinqlə mübarizəyə tətbiq edilməsinə yönəlmişdir. Konvensiya Ümumdünya Antidopinq Məcəlləsini tanıyır, onun effektiv tətbiq edilməsini təmin edir, həmçinin dövlətlərin qlobal şəkildə dopinq probleminin həlli üçün istifadə edə biləcəkləri hüquqi çərçivəni təmin edir. YUNESKO-nun uyğunluq monitorinqi qaydalarına əsasən Azərbaycan Respublikası AMADA, Gənclər və İdman Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi və Milli Olimpiya Komitəsindən ibarət Milli Uyğunluq Platformasını yaratmışdır. AMADA ölkənin uyğunluğunun əlaqələndirilməsi üzrə Milli Əlaqələndirici təyin edilmişdir.

## Avropa Şurası

Avropa Şurasının Antidopinq Konvensiyası 1 mart 1990-cı ildə qüvvəyə minmişdir. Konvensiya antidopinq qanunvericiliyinin əlaqələndirilməsi məqsədilə məcburi qaydaları müəyyən edir. Azərbaycan Konvensiya və onun Əlavə Protokolunu müvafiq olaraq 4 noyabr 2003-cü ildə və 11 fevral 2004-cü ildə ratifikasiya etmiş və bu sənədlər 2004-cü ildə qüvvəyə minmişdir. AMADA Avropa Şurasının Monitorinq Qrupu (T-DO) və Ümumdünya Antidopinq Agentliyi üzrə Avropa Şurasının Xüsusi Avropa Komitəsinin (CAHAMA) iclas və fəaliyyətlərində, o cümlədən müxtəlif işçi qruplarında iştirak edərək onlarla sıx tərəfdaşlıq edir.

## Beynəlxalq Test Agentliyi (BTA)

12 iyul 2019-cu il tarixdə AMADA və BTA əməkdaşlıq müqaviləsi imzalamışlar. AMADA-nın BTA ilə tərəfdaşlığı test keçirmə, araşdırma, idmançıların bioloji pasportları sahələrində məlumat və təcrübə mübadiləsi və digər qarşılıqlı maraq təşkil edən sahələrdə əməkdaşlığı əhatə edir. Müqavilə, həmçinin AMADA-nın, BTA-nın xahişi ilə BTA adından Nümunə Toplanması üçün Səlahiyyətli Qurum kimi çıxış etməsini nəzərdə turur. Sözügedən müqavilənin imzalanması, qabaqcıl təcrübədən faydalanmaq məqsədilə beynəlxalq əməkdaşlıq şəbəkəsinin genişləndirilməsi və daha yüksək naticələrin əldə edilməsi üçün milli və beynəlxalq antidopinq səylərinin koordinasiyası baxımından əhəmiyyətlidir.

## Milli Antidopinq Təşkilatlatrı İnstitutu

AMADA Milli Antidopinq Təşkilatlatrı İnstitutunun üzvü-dür. İnstitut dünyanın 100-dən çox milli antidopinq təşkilatını əhatə edir. İnsitut çərçivəsində AMADA antidopinq sahəsində digər təşkilatlarla məlumat mübadiləsi aparır və dopinqlə mübarizə istiqamətində müxtəlif təşəbbüs və layihələrdə iştirak edir.

## Milli Antidopinq Təşkilatları (MADT) və Nümunə Toplanması üçün Səlahiyyətli Qurumlar (NTSQ)

AMADA öz test keçirilməsini daha effektiv planlaşdırması və daha yaxşı məlumat mübadiləsi məqsədilə digər milli antidopinq təşkilatları və özəl nümunə toplama üçün səlahiyyəti olan qurumlarla sıx əməkdaşlıq edir. AMADA Türkiyə, Avstraliya, Kanada, İspaniya, İsveçrə, Rusiya, Belarus, Ukrayna, Bolqarıstan, Moldova Milli Antidopinq Təşkilatları ilə əməkdaşlıq müqavilələri imzalamış və, həmçinin Almaniyada yerləşən beynəlxalq nümunə toplama üçün səlahiyyətli qurum olan “PWC” şirkəti ilə daima olaraq əməkdaşlıq edir.

# BEYNƏLXALQ LAYİHƏLƏR

# 08



## İnsan Hüquqları istiqamətində - "Antidopinq icraatlarının təhlili"

Başlama tarixi: 17-18 dekabr 2020-ci il

Rəhbərlik edən:

Avropa Şurası Antidopinq Konvensiyası üzrə İnsan Hüquqları Ad Hoc Qrupunun Sədr müavini Şəfəq Hüseynli

Məqsəd:

Antidopinq icraatları zamanı idmançıların hüquqlarının qorunmasının və onların ədalətli dinləmə hüququndan istifadənin təmin edilməsinin araşdırılması.

Nəticə:

İdmançı hüquqlarının təmin edilməsi üzrə dünyada antidopinq icraatlarının boşluqları və uyğunsuzluqlarını təhlil edərək Avropa Şurasının bu sahədə təsdiq etdiyi ədalətli dinləmə üzrə tövsiyəvi sənədin tətbiqinin monitorinqi. Layihəyə iki beynəlxalq ekspert cəlb edilmişdir.

Əhatə dairəsi:

5 qitədən olan 50 ölkənin antidopinq təşkilatı, Ümumdünya Antidopinq Agentliyinin, Beynəlxalq Olimpiya Komitəsinin və Avropa İttifaqının idmançı təşkilatları, və müxtəlif ölkələrdən olan idmançılar.

## Gender bərabərliyi istiqamətində - "Antidopinqdə gender bərabərliyinin gücləndirilməsi"

Başlama tarixi: 10-11 may 2021-ci il

Rəhbərlik edən:

Avropa Şurasının Ümumdünya Antidopinq Agentliyi üzrə Xüsusi Avropa Komitəsinin gender bərabərliyi məruzəçisi Şəfəq Hüseynli

Məqsəd:

Ümumdünya Antidopinq Agentliyi, Avropa Şurasının müxtəlif dövlətlərarası qurumların və milli və beynəlxalq antidopinq təşkilatları arasında gender balansı haqqında məlumatın və daxili qaydaların təhlil edilməsi və Avropa Şurasının strateji prioritetlərindən hesab edilən gender bərabərliyin antidopinq sahəsində gücləndirilməsi.

Nəticə:

Avropa Şurası Nazirlər Komitəsinin qəbul edəcəyi tövsiyə xarakterli sənədin hazırlanması.

Qoşulan qurumlar:

Avropa Şurasının Monitorinq Qrupu və Ümumdünya Antidopinq Agentliyi üzrə Xüsusi Avropa Komitəsi

## Antidopinq icraatı zamanı çəkişmə prinsipinin və müdafiənin təkmilləşdirilməsi istiqamətində - "Rəqəmsal hüquqi yardım"

Rəhbərlik edən:

Azərbaycan Milli Antidopinq Agentliyi

Məqsəd:

Pulsuz hüquqi yardımdan dünyanın istənilən yerində yararlanmaq üçün "Rəqəmsal hüquqi yardım" mobil tətbiqinin hazırlanması - idmançılara qarşı başlanmış antidopinq icraatları zamanı mobil tətbiqdən istifadə edərək özlərini müdafiə etmək üçün lazımi üsullardan istifadə edilməsi barədə tövsiyələrin alınması və Ümumdünya Antidopinq Məcəlləsi müddəalarının düzgün tətbiq edilməsi.

Nəticə:

İdmançının ədalətli dinləmə hüququnun və çəkişmə prinsipinin təmin edilməsi.

Tərəfdaş:

Avstraliyanın dopinqlə və idman yarışlarında manipulyasiyalarla mübarizə üzrə "Sport Integirty Australia" təşkilatı

Rəqəmsallaşma və Texnoloji İnkişaf dopinq təhlükələri ilə mübarizədə vacib rol oynayır. Rəqəmsal Transformasiya Layihəsi, AMADA tərəfindən rəqəmsal transformasiya planının inkişafının koordinasiyası və monitorinqi üçün 2020-ci ildə başlayan təşəbbüsdür. AMADA blokçeyn texnologiyası, rəqəmsal və interaktiv platformalar kimi yeni rəqəmsallaşdırılmış prosesləri üzrə həlləri öz fəaliyyətinə inteqrasiya edir.

Rəqəmsal Transformasiya Layihəsi təşkilat daxilində müəyyən edilmiş mərhələlər üzrə rəqəmsal həllərin və təşəbbüslərin inteqrasiyasına kömək edir. Layihə AMADA-nın ortaya çıxan məsələlərə, habelə antidopinq və texnoloji təkamülün müəyyən edilmiş strateji hədəflərə uyğunlaşdırılmasına imkan verir.

# RƏQƏMSALLAŞMA

# 09



AMADA dopinqlə mübarizə sahəsində bütün maraqlı tərəflər arasında loyallıq, şəffaflıq və etimadı artırmaq üçün bu sahədə istifadə edilən sistem və həllərin texnoloji yeniliklərini (blokçeyn əsaslı sistemlər, süni intellekt və proqnozlaşdırma sistemləri, maşın öyrənməsi və s.) istifadə edir:

- Ənənəvi üsulları avtomatlaşdırılmış alqoritmlərlə əvəz etmək;
- Məlumatı qiymətləndirmək, proqnozlaşdırmaq, imkan və ya təhlükəli riskləri müəyyən etmək üçün Maşın Öyrənməsindən istifadə etmək;
- Şablonların tanınmasını istifadə etməklə istənilən sistem və ya məlumat barədə xüsusiyyətlər və ya verilənlərin təşkilini aşkarlamaq;
- Gələcəyi ehtimal etmə analitikası üçün şablon tanıma alqoritmlərindən istifadə;
- Vaxtında dəyişikliklər etmək üçün meylləri davamlı monitorinq etmək.

# TEXNOLOJİ İRƏLİLƏYİŞLƏR

### Blokçeyn əsaslı reyestr

AMADA idmançıların məlumat bazası, idmançıların yarışlarda qeydiyyatı və antidopinqlə əlaqəli məlumat bazası daxil olmaqla blokçeyn texnologiyası əsasında ölkə idmançılarının vahid reyestrini yaradır. Sistem hər bir idmançının "rəqəmsal profil"ini saxlayacaq və idmançılar barədə məlumatla yanaşı onların həkim və məşqçiləri barədə də məlumatı saxlayacaq. Blokçeyn texnologiyasının istifadəsi idmançı məlumatlarının itkisi və ya saxtalaşdırılması təhlükəsini aradan qaldıracaq. İdmançı barədə bütün fərdi məlumat ən müasir kriptoqrafik alqoritmlərlə mühafizə olunacaq.

### Kommunikasiyaların rəqəmsallaşdırması

İdmançılar, idmançının köməkçi heyəti və respublika idman federasiyaları ilə antidopinq faəliyyəti üzrə müxtəlif kommunikasiyaların rəqəmsallaşdırılması.

### "İdmançının risk səviyyəsinin hesablanması"- analitik proqram

AMADA məlumat bazasında olan idmançıların xüsusi alqoritmə əsasən idmançının risk səviyyəsini müəyyənləşdirən proqram

### Təhqiqat və araşdırma üçün yeni proqramlar

Təhqiqat məqsədləri üçün məlumatların təhlili üzrə "IBM Security i2 Analyst's Notebook" və "Shadowdragon Social Net" proqram təminatlarının istifadəsi.

### Kağızsız Dopinq Nəzarəti

AMADA kağızsız dopinq nəzarəti MODOC platformasından istifadə edir. Bu müasir şifrələmə və məlumatların ötürülmə və saxlanması üçün müdafiə parametrlərinə malik, yarış müddətində və yarışdan kənar müddətdə dopinq nəzarətinin planlaşdırılması, icrası və sənədləşdirilməsi üçün rəqəmsal və tam inteqrasiya edilmiş sistemdir.

### Dərmanların yoxlanılması üçün proqram təminatı

Dərmanların tərkibində qadağan olunmuş maddələrin olub-olmamasını yoxlamaq üçün AMADA tərəfindən hazırlanan xüsusi proqram.

AMADA üçün sosial məsuliyyət məqsədyönlü strateji xətdir. Çünki hər bir qurum qanunla cavabdeh olduğu vəzifə və öhdəliklərini yerinə yetirməklə bərabər cəmiyyətin bir parçası olduğunu da unutmamalıdır. Bu məsuliyyət AMADA-nın öz kollektivinə, cəmiyyətə və ətraf mühitə həssas yanaşmanı əhatə edir.

Sosial məsuliyyət AMADA üçün ilk növbədə ətraf mühitə həssas yanaşmanı və öz əməkdaşlarına sağlam və rahat iş şəraitinin yaradılmasını ifadə edir. Elə buna görə də qənaət, ətraf mühitə təsirlərin azaldılması və təkrar istehsal məhsullarından istifadəyə əsaslanan "Yaşıl ofis" prinsiplərini tətbiq edir. AMADA-nın gündəlik fəaliyyətində kağız istifadəsi minimuma endirilib. Ofis daxili bütün kargüzarlıq və sənədləşmə işləri mümkün qədər elektron qaydada həyata keçirilir. Bundan əlavə ofisdə tullantılar çeşidlənir və əsasən təkrar istehsal məhsullarından istifadə edilir."Yaşıl ofis" həm də ofis resurslardan səmərəli və qənaətcil istifadəni, əməkdaşların ekoloji istehlak haqqında maarifləndirilməsini ehtiva edir. AMADA qısa müddət ərzində ətraf mühitə qarşı həssas kollektiv formalaşdıra bilib.

# SOSİAL MƏSULİYYƏT

# 10



# FƏALİYYƏTİMİZİN ƏTRAF MÜHİT ASPEKTLƏRİ

İşıqlandırma, istilik / kondisioner və avadanlıqların istifadəsi və nəqliyyat istifadəsi ilə əlaqəli enerji istehlakı

Enerji istehlakından, o cümlədən istilikdən və elektrik enerjisindən istifadədən yaranan emissiyalar

Su qovuşağı ilə əlaqəli su istehlakı

### AMADA Ətraf Mühit Siyasətinin əsas prinsipləri:

- Təhlükəsiz və dayanıqlı bir mühit üçün davamlı inkişafın təşviqi
- Ətraf mühitə dəyən zərərin və çirklənmənin azaldılması üçün tədbirlərin görülməsi
- Ətraf mühitin mühafizəsi üzrə təşkilatdakı daxili idarəetmənin effektivliyi və mükəmməlliyi
- Fəaliyyətimiz daxilində və podratçılarımızda olan mənbələrdən səmərəli istifadə üçün tədbirlərin görülməsi

### AMADA-nın enerji və yayınların idarə edilməsi üzrə qaydaları:

- Enerji İstehlakının Azaldılması üçün Təlimatlar
- Tullantıların azaldılması və idarə olunmasına dair təlimatlar
- Kağız, toner və mürəkkəb istehlakının azaldılmasına dair təlimatlar

## *Daha yaxşı bir cəmiyyət qurmaq*

AMADA təşkilat və işçilər tərəfindən idarə olunan sosial təşəbbüslərlə sosial məsuliyyətini təmin edir. Gender bərabərliyi, qadın və uşaq hüquqlarının qorunması məsələsinə hər zaman diqqətlə yanaşan AMADA sosial məsuliyyət tədbirlərində də bu məsələni xüsusi diqqətdə saxlayır. Sosial məsuliyyət tədbirləri çərçivəsində qadın uşaq sığınacağı ilə bağlı daima aksiya həyata keçirilir.

Bundan əlavə AMADA ölkədə baş verən və dövlət tərəfindən başlanan bir sıra sosial məsuliyyət və ictimai təşəbbüsləri dəstəkləyir və aktiv iştirak edir.

AMADA
STAY CLEAN

Tel : +994 12 599 08 28
Mob : +994 50 218 82 06

Email : office@amada.az
Veb : amada.az

Ünvan : 8, İzmir küç., Hyatt Tower 3,
AZ 1065, Bakı, Azərbaycan